UOT 159.9

***Lalə Aydın qızı Kazımzadə***
*fəlsəfə doktoru hazırlığı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*

# GƏNCLƏRİN KOMMUNİKATİV VƏ TƏŞKİLATÇILIQ MEYLLƏRİNİN FORMALAŞMASINA ARXİTEKTURA MƏKANININ TƏSİRİ XÜSUSİYYƏTLƏRİ

***Лала Айдын гызы Кязымзаде***
*докторант по подготовке доктора философии*
*Бакинский Государственный Университет*

# ОСОБЕННОСТИ ВОЗДЕЙСТВИЯ АРХИТЕКТУРНОГО ПРОСТРАНСТВА НА КОММУНИКАТИВНЫЕ И ОРГАНИЗАТОРСКИЕ СКЛОННОСТИ МОЛОДЕЖИ

***Lala Aydin Kazimzadeh***
*doctoral student in philosophy*
*of the Baku State University*

# FEATURES OF INFLUENCE OF ARCHITECTURAL SPACE ON THE COMMUNICATIVE AND ORGANIZATIONAL PROPENSITY YOUTH

**Xülasə:** Memarlıq məkanı xüsusi süni mühit təşkil edərək, insanın bir çox şəxsiyyət xüsusiyyətlərinə təsir edir. Xüsusilə bu, böyük şəhərlər üçün aktualdır. Burada məskunlaşan böyük sayda insan kütləsi bir çox estetik, ekoloji, mənəvi və psixoloji keyfiyyətləri əldə edə bilir. Məqalədə Bakı Dövlət Universitetinin tələbələri arasında keçirilən pilotaj sorğunun nəticələri təhlil olunur, belə bir nəticə çıxarılır ki, daha keyfiyyətli memarlıq məkanı şəraitində ictimai fəallıq gənclərdə yüksək kommünikativ və təşkilati meylləri formalaşdırır.

***Açar sözlər**: şəxsiyyətin psixologiyası, arxitektura məkanı, kommunikativ və təşkilatçılıq meylləri, tələbə gənclər, Avropa oyunları-2015, ətraf mühit, emosional durum, sosial-psixoloji keyfiyyətlər*

**Резюме:** Архитектурное пространство обладает рядом возможностей воздействия на личность человека. Особенно это важно учитывать в городах, где живет большое количество людей. Под воздействием экологических, ландшафтных, эстетических особенностей окружающего пространства у них формируется особое представление о «личном» пространстве, кроме того, представление о том, как надо его оберегать. В статье подводятся итоги проведенного пилотажного исследования среди студентов Бакинского государственного университета об их коммуникативных и организаторских склонностях и навыках. Полученные результаты дают возможность говорить о том, что улучшенное архитектурное пространство и общественная активность здесь быстрее и лучше формируют у них коммуникативные и организаторские склонности и навыки.

***Ключевые слова**: психология личности, архитектурное пространство, коммуникативные и организационные стремления, студенческая молодежь, Европейские игры-2015, окружающая среда, эмоциональное состояние, социально-психологические качества*

**Summary:** Architectural space may influence people in various possible ways. It’s especially important in the cities with large population. Ecological, landscape, and aesthetic peculiarities form the idea of personal space as well as the idea of how to protect it. The article concludes the results of the pilot research conducted with the participation of Baku State University students focused on their communicational and organizational capabilities and skills. The results allow us to state that the improved architectural space and social activity can help in better and faster sculpting of the communicational and organizational skills and capabilities.

***Keywords**: personality psychology, architectural space, communication and organizational commitment, students, European Games-2015, environment, emotional state, social and psychological qualities*

**Problemin aktuallığı**. İnsan, onu əhatə edən ətraf aləm əsasən süni xarakter daşıdığına görə (bildiyimiz kimi, dünyada əhalinin əksəriyyəti şəhərlərdə yaşayır) ona təsir edən bəzi amil-

lər də şəhərlə, onun memarlıq xüsusiyyətləri ilə bağlıdır. Həm də məlumdur ki, insan davranışı müəyyən dərəcədə onun yaşadığı qrupun təsiri altında formalaşır. Qrup isə ailə, iş kollektivi, məhəllə, qəsəbə, şəhər mühitində formalaşa bilər. İnsana təsir edən qrupdaxili dəyərlər və normalar onun davranış tərzini formalaşdırır. İnsanın psixo-fizioloji, sosial keyfiyyətləri də burada nəzərə alınmalıdır, daha sonra, onun cəmiyyətdə tutduğu status da əhəmiyyətli rol oynayır. Referent qruplar da var ki, onların dəyərlər sistemi və normalar insan davranışına birbaşa təsir göstərir. Ola bilsin ki, referent qruplar bir neçədir və təsir müxtəlif və ziddiyyətlidir [1, p.49, 2, p.50].

İnsan davranışına onun daxili "Mən"i, şəxsiyyət keyfiyyətləri, fiziki durumu, psixoloji vəziyyəti (özünüqiymətləndirmə, Mən – konsepsiyası və s.) də təsir göstərir [5]. Deyilənləri nəzərə almaqla, sürətlə inkişaf edən şəhər aqlomerasiyası şəraitində xarici aləmin qiymətləndirilməsində baş verən dəyişikliklərin şəxsiyyət keyfiyyətlərinə təsirini öyrənmək aktual məsələlərdən biridir.

**Problemin işlənmə dərəcəsi**. Memarlıq məkanının qurulması ilə bağlı tədqiqatlar bir neçə istiqamət üzrə, o cümlədən memarlıq, ekoloji, psixoloji, iqtisadi, coğrafi, geoloji və s. aparılır. Müvafiq olaraq ədəbiyyatı da bunlara uyğun qruplaşdırmaq olar. Araşdırmalar göstərir ki, dünyada şəhər və ümumiyyətlə yaşayış ərazisinin landşaftı ilə bağlı olaraq kifayət qədər ciddi araşdırmalar aparılır. Öyrənilən sahələr sırasında insanların psixoloji tələbatları və durumu ilə əlaqədar kifayət qədər geniş araşdırmalar aparılır. Həmin istiqamətlərindən biri estetik şüur və memarlıq dizaynı problemlərinin nisbətidir.

Son illər amerikan tədqiqatçısı Mark Roksburq öz araşdırmalarını memarlıq məkanının inkişaf konsepsiyasına, burada təsirlilik və dizaynın tədqiqat metodologiyasının öyrənilməsi istiqamətinə yönəltmişdir. Bu və digər problemlərin təhlili göstərir ki, məsələni dərindən araşdırmaq üçün dizayn, memarlıq məkanının formalaşması tarixinə müraciət etmək lazımdır. Dizayn həyatımızın bir çox aspektlərini əhatə edən mürəkkəb, kompleks xarakterli fəaliyyətdir. Roksburq belə bir qənaətə gəlmişdir ki, dizayn, vizuallaşma fikir, şeylər və hərəkətlər arasında mürəkkəb əlaqələr xəritəsini yaratmaq üçün istifadə olunur. Müəllif burada müəyyən qrafik imkanlardan da istifadə edir. Roksburq üç əsas tarixi dizayn konsepsiyasının olması barədə qənaətə gələrək, göstərir ki, burada alternativ strategiya yaradılmalıdır, özü də estetik zəmində. Estetik dizayn bütün səviyyələrdə dünya ilə bir estetik qarşılıqlı təsiri təşkil edir (hətta karikatura səviyyəsində). O hesab edir ki, insanlarda müəyyən dizayn şüuru var və təklif edir ki, burada alternativ ontoloji əsasların olmasını da qəbul edək.

Memarlıq məkanında insan sıxlığı ilə bağlı araşdırmalar göstərib ki, insanlar yüksək sıxlıq vəziyyətini dərk etsələr də, bu, nadir hallarda insan davranışına birbaşa təsir göstərir. Həm də sıxlığın dərk olunmasında fərdi fərqlər var. Məkan sıxlığının qiymətləndirilməsində neytral orta hallarla rast gəlsək də, daha ətraflı, çoxölçülü şkala əsasında təhlil burada əhəmiyyətli fərdi fərqlərin olmasını aşkar edir. Tədqiqat qruplarında iki əsas ölçü – məkan sıxıntısı və sosial sıxıntı aşkar edilmişdir [2]. Rusiya tədqiqatçıları da bir çox istiqamət üzrə bu problemi araşdırır. Psixologiyada aparılan tədqiqatların da qısa icmalını verək. Memarlıq və insan emosiyaları, ümumiyyətlə psixologiyası ilə bağlı bir çox məsələlərinə müraciət edən müəlliflərin [3, 5, 7, 11, 13 və s.] gəldiyi qənaətlər belədir ki, insanın bu xarakterli sosial məkanda davranışına ən çox təsir edən onun tələbatlarıdır. Koqnitiv qiymətləndirmə ilə yanaşı emosional-qiymətləndirici və praktiki münasibət də formalaşır. İnsanlarda kommunikativ və təşkilatçılıq meyllərinin formalaşması xüsusiyyətləri haqqında isə M. Černoušek, M. Berezin yazıblar. Bununla belə Azərbaycan reallılıqları, Bakı şəhəri ilə bağlı bu qəbildə araşdırmalar aparılmamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Məqsəd müasir, sürətlə dəyişən arxitektura məkanının Avro-2015 Avropa oyunlarında könüllü kimi iştirak edən tələbə gənclərdə həmin oyunlarda iştirakdan sonra kommunikativ və təşkilatçılıq meyllərində fərqlərin yaranıb-yaranmamasına aid tədqiqatın keçirilməsidir. Burada ətraf mühitin gənclərin emosional durumuna, sosial-psixoloji keyfiyyətlərinə təsiri xüsusiyyətləri, bununla da onlarda təşkilatçılıq və ünsiyyət bacarıqlarının formalaşması tərzinə diqqət yetiriləcək. Seçilmiş metod kommunikativ və təşkilatçılıq meyllərinin aşkar edilməsi metodikası ilə bağlıdır.

Həmin metodika şəxsiyyətin kommunikativ və təşkilatçılıq meyllərini üzə çıxarılması üçün nəzərdə tutulmuşdur (insanlarla işgüzar və yoldaşlıq münasibətlərini dəqiq və tez qurmaq

bacarığı, ünsiyyətin genişlənməsinə nail olmaq, qrup tədbirlərində iştirak etmək, insanlara təsir etmək bacarığı, təşəbbüs göstərməyə meyl və s.).

Metodika 40 sualdan ibarətdir və müayinə olunan hər bir suala "hə" və ya "yox" cavabını verməlidir. Tapşırıq 10 – 15 dəqiqəyə yerinə yetirilməlidir. Bu zaman kommunikativ və təşkilatçılıq meyllərinin dərəcəsi ayrıca müəyyən olunur. Cavablardan asılı olaraq məlum olacaq ki, respondentlərin ətraf mühitin emosional, sosial-mədəni, təbii amillərinin təsiri altında özündə kommunikativ və təşkilatçılıq meyllərini artıra biliblər yoxsa yox.

**Tədqiqatın fərziyyəsi**. Şəhərin inkişafının və burada müxtəlif sahələrdə insan fəaliyyətinin genişlənməsi, burada şəhər landşaftının insanların estetik, mənəvi və sosial tələbatlarına getdikcə daha çox uyğun gəlməsi fərdlərdə, xüsusilə gənclərdə kommunikativ və təşkilatçılıq bacarıqları və imkanlarının genişlənməsinə gətirib çıxarır. Ümumşəhər tədbirlərində idarəetmənin bütün strukturları iştirak edəndə bu proses daha da sürətlənir.

**Əsas hissə**. İnsan davranışında onun tərəfindən istifadə olunan yerin təşkili və ya ərazi problemləri ilə "Proksemika" elmi məşğul olur. Ünsiyyət zamanı əlaqə intensivliyi insanlar arasındakı məsafə və onun istiqamətlənməsi ilə tənzimlənir. Adamlar məsafənin seçilməsini çox vaxt dərk etmir, lakin faktiki məsafə norması haqqında anlayışa malikdirlər. Əgər məsafə onların təsəvvürlərinə uyğun deyilsə, insanlar həmişə buna cavab olaraq reaksiya verirlər. Kraudinq – məkanın çatışmamazlığının subyektiv hiss səbəbindən yaranan stressə deyilir. Əksər hallarda insanlar ərazi davranış qaydalarına ciddi riayət edir, baxmayaraq ki, heç biri xüsusi təlim keçməmişlər [15]. Kraudinq halının aradan qaldırılmasında kommunikativ və təşkilati bacarıqların formalaşmasının xüsusi əhəmiyyəti var. Bu işdə isə birgə ictimai tədbirlərdə iştirak etmək, müxtəlif ünsiyyət imkanlarından istifadə etmək lazımdır. Belə imkanları isə insanlara böyük, şou xarakterli tədbirlər (o cümlədən idman tədbirləri, festivallar) verir.

Şəxsiyyətin kommunikativ və təşkilati meyllərinə insanların işgüzar və yoldaşlıq münasibətlərinin yaradılması, əlaqələrin genişləndirilməsinə canatma, ictimai, qrup tədbirlərində iştirak etmək, insanlara təsir etmək bacarığına malik olmaq, təşəbbüskarlığı göstərməyə can atmaq və s. daxildir. Məlumdur ki, belə meyllər və keyfiyyətlər insanda ömür boyu formalaşır və inkişaf edir. Bu mənada insan həyatının ən əhəmiyyətli mərhələ gənclik dövrüdür. Bu mərhələdə gənclər oxuyur, peşə vərdişləri və bacarıqlarını özündə aşıladır, gələcək işlə bağlı yeni biliklər toplayırlar. Bir çox amillərlə bağlı onların müxtəlif sosial-psixoloji və peşəkarlıq keyfiyyətlərinə süni mühiti, yəni yaşadığı şəhərin və yaxud qəsəbənin məkanını da qeyd etmək lazımdır.

Məlumdur ki, şəhərsalma mədəniyyəti uzun əsrlər boyu formalaşıb. Müxtəlif dövrlərdə yaradılmış və istifadə olunan predmetli məkan şəraiti var ki, burada yerləşdirilən obyektlər təbiətlə, iqlim şəraiti və relyeflə xüsusi bütövlülük təşkil edir. Bu mühitdə yaşayan hər bir insan müxtəlif sosial subyektlərlə (fərdlər, qruplar) kommunikativ münasibətləri qurur (təhsil aldığı zaman, iş yerində, ailədə, müxtəlif həyat situasiyalarında və s.). Kommunikasiya zamanı hər bir kommunikasiya iştirakçısı tərəflər arasında vasitəçilik edə bilər, hər hansı bir qərarı, hərəkəti izah edərək, onu tətbiq edər.

Təşkilatçılıq bacarıqları və qabiliyyətləri insanda idarəetmənin müxtəlif pillələrində və müxtəlif məqsədləri həyata keçirərkən formalaşır. Burada tədqiqatı, layihələndirməni, hər hansı bir təşkilat və ya müəssisənin fəaliyyətinin təşkilini, inzibatçılıq işlərin aparılmasını göstərmək olar. Hər hansı bir işi reallaşdırmaq üçün insanda həm də həvəs, motivasiya, maraq olmalıdır ki, həmin təşkilatçılıq bacarığı formalaşsın, insan həmişə təşəbbüskarlıq əzmində olaraq, istənilən an müxtəlif situasiyalardan çıxış yolunu tapsın.

Həm kommunikativ, həm də təşkilatçılıq meylləri və bacarıqları müəyyən koqnitiv əsasda, biliklər zəminində formalaşmalıdır. Görülən işin nəzəri əsaslarının dərki, düşünülməsi, təhlili və qiymətləndirilməsi də olduqca əhəmiyyətlidir. Burada görülən işlərin qiymətləndirilməsi müxtəlif mövqelərdən aparılmalıdır (bilik sahəsi, fəaliyyət sahəsi kimi və s.).

İnsanları əhatə edən arxitektura məkanının da xüsusiyyətləri var ki, onlar ayrıca qeyd olunmalıdır. Ekspertlər belə məkana bir neçə amili daxil edirlər: insanın yaşadığı mühitin məkan-predmet göstəricilərini (şəhər və aqlomerasiyalar məkanı), bura daxil olan memarlıq və dizayn obyektləri və mühəndis qurğuları: landşaftlı rekreasiya (bərpa) kompleksləri, bu komplekslərin

təchizatı, təbii görünüşü, binaların və tikililərin interyeri və təchizatı. Bu məkanın, zəruri funksional-texniki və estetik tələblərinə uyğun, zəruri dizayn vasitələri və sistemləri ilə təchiz edilməsi (akustika, işıqlandırma, rəng çalarları və xüsusiyyətləri, temperatur və nəmişlik rejimi, məlumatlılıq tutumu, dizayn obyektləri və s.).

Daha sonra buraya təbii, şəhər və interyer mühitinə (məlumat, kommunikasiya, məişət rahatlığı baxımından) aid xüsusi funksional – bədii komplekslər: müxtəlif təyinatlı ekspozisiya obyektləri, həmin obyektlərin rəqəmsal, verbal, qrafik, həcmli və s. obyektləri də daxildir ki, məkanın, mühitin davamlı inkişafı üçün lazımlı vasitələr və metodikalar yaradıla bilsin [17].

Son zamanlar Respublika hökuməti tərəfindən həyata keçirilən tədbirlər nəticəsində ölkə ərazisində sosial məkan və onun tərkib hissələrinin bərpası, inkişafı və istifadəsi üzrə xeyli müsbət dəyişikliklər baş vermişdir. Burada sosial baxımından əhəmiyyətli olan yaşayış məkanının monitorinqi, layihələndirilməsi, sənədləşdirilməsi, gələcək inkişafının əsas istiqamətlərinin müəyyən edilməsi üzrə işlər həyata keçirilir. Xüsusilə ölkəmizin və regionun aparıcı iqtisadi və mədəni mərkəzlərindən olan Bakı şəhərində baş verən dəyişikliklər qeyd edilməlidir. Burada mühitin dizaynı üzrə (işıq – rəng dizaynı, abadlıq işləri və s.) xeyli irəliləyiş əldə edilmişdir.

Qeyd olunmalıdır ki, ölkədə, istər paytaxtda, istərsə də digər ərazilərdə memarlıq, dizaynla mühitin layihələndirilməsi üzrə aparılan işlər dünyanın qabaqcıl ölkələrinin nailiyyətlərindən bəhrələnərək həyata keçirilir. Şəhər mühitinin təşkili ilə bağlı marketinq və menecment işləri də yüksək səviyyədə təşkil olunmuşdur.

Belə şəraitdə şəhər həyatının təşkili də daha uğurlu olur. Burada işləmək, oxumaq, istirahət etmək daha rahat olur. Xüsusilə bu, tələbə gənclər üçün faydalı və zəruridir. Regionlardan gələn gənclər Bakının sosiomədəni mühitinə qatılaraq ona uyğunlaşır, sosiallaşma prosesini daha uğurla həyata keçirir. Tədris nəticəsində onlar tərəfindən əldə edə biləcək qabiliyyətlər, bacarıqlar və biliklər həm peşə fəaliyyətinə, həm də sosial-psixoloji keyfiyyətlərinə tam uyğun gəlməlidir. Həmin keyfiyyətlər sırasında təşkilatçılıq və kommunikativ meyllər və bacarıqlar xüsusilə vacibdir. Bu keyfiyyətlərin əsasında iş zamanı bütün qalan keyfiyyətlərdən (yəni bilik və bacarıqlardan) uğurla istifadə etmək imkanı əldə ediləcəkdir. Gənclər riskli situasiyada vəziyyətdən çıxış yolunu tapmağa, kollektivini idarə edilməsində liderlik keyfiyyətlərini ifadə etməyə, problemli situasiyaları həll etməyə bacarmalıdırlar.

Gənclərin bir şəxsiyyət, vətəndaş və mütəxəssis kimi özünü təsdiqləmək üçün həm tədris, həm də tədrisdən kənar imkanlar istifadə etməyə bacarmalıdırlar. Belə fürsətlərdən biri ictimai tədbirlərdə iştirak etməkdir. Son zamanlar Respublikamızda beynəlxalq mədəni, idman, siyasi tədbirlər geniş vüsət alıb. Dünyaya inteqrasiya edən Azərbaycan öz qapılarını müxtəlif, ölkəmizin davamlı inkişafına fayda gətirə biləcək insanların üzünə geniş açır. Gənclər, o cümlədən tələbələr belə tədbirlərdə həm bilavasitə iştirakçı, həm də könüllü, yəni yardımçı kimi iştirak edir. Belə fəaliyyət nəticəsində onlar şəhərin memarlıq məkanının müxtəlif növlərindən (interyerlər və onların avadanlıqları, açıq məkanlarda yerləşən binalar və tikililər, müxtəlif təyinatlı obyektlər və s.) faydalanır, bu da, öz növbəsində, həmin memarlıq məkanının qavranılmasına yaradıcı yanaşmaq imkanını verir, qavranılan məlumatı öz şüurunda, dünyagörüşündə dünyaya olan münasibətini formalaşdırır. Belə bir mühit, onun təkmilləşdirilməsi gənclərin işgüzar qabiliyyətlərinə, ilk növbədə çox vacib olan kommunikativ və təşkilatçılıq bacarıqları və meyllərinin inkişafına necə təsir göstərir?

Bakıda 2015-ci ilin birinci yarısında Avro-2015 Avropa idman oyunları üzrə möhtəşəm tədbirlərində könüllü kimi iştirak edən gənclərdə, memarlıq mühitdə baş verən dəyişikliklərin təsiri altında yuxarıda adı çəkilən kommunikativ və təşkilatçılıq bacarıqları dəyişibmi? İnkişaf edibmi? Bu suallara cavab tapmaq üçün tədbirdən 3-4 ay keçəndən sonra biz tədqiqat keçirmək qərarına gəldik. Pilotaj xarakterli bu tədqiqatda Bakı Dövlət Universitetinin 38 tələbəsi iştirak etmişdir. Onlardan 25 nəfəri (14 qız və 11 oğlan) könüllü, 13 nəfər isə (6 qız və 7 oğlan) adi tələbə olmuşdur. Tədqiqat 2015-ci ilin oktyabr ayında keçirilmişdir. Test sorğusu aprobasiyadan keçən və psixoloji ictimaiyyətə yaxşı məlum olan metodika əsasında aparılmışdır. Burada 40 suala "bəli", yaxud "xeyir" cavabı verilməli idi.

Biz əmin olmaq istəyirdik ki, olimpiada tədbirlərində iştirak edən gənclərdə xüsusi me-

marlıq məkanı obrazı formalaşmışdır, çünki onların fəaliyyəti xüsusi zallarda, stadionlarda, açıq meydançalarda həyata keçirilirdi. Burada olan rahatlıq, estetik gözəllik, işin yüksək səviyyədə təşkili (intizam, məsuliyyət, mədəni davranış baxımından) şübhəsiz, tələbələrin özü, həyat, idman, insanlar haqqında təsəvvürlərinə təsir göstərmişdir. Belə bir fərziyyə irəli sürmək olar ki, tədbirdən sonra tələbələrdə həm kommunikativlik, həm də təşkilatçılıq qabiliyyət və bacarıqları bir qədər inkişaf etmişdir və könüllülər işində iştirak etməyənlərdən bu mənada bir qədər yüksəkdədirlər.

Beləliklə, son zamanlar azərbaycanlı gəncləri müxtəlif tədbirlərə, fəaliyyət sahələrinə dəvət edirlər ki, onların enerjisindən, imkanlarından faydalansınlar, eyni zamanda onların cəmiyyətə fayda gətirə biləcək vətəndaş kimi yetişdirsinlər. Qeyd etdiyimiz kimi, Bakıda 2015-ci ilin yayında keçirilən ümumdünya idman tədbiri – Avro-2015 olimpiadasında yüzlərlə gənclər könüllü kimi iştirak etmişlər. Bura isə, yeni sosial, mədəni, memarlıq məkanı olaraq, şübhəsiz, onların dünyagörüşünə, özünə və başqalarına münasibətində öz əksini tapmışdır. Nə dərəcədə belə hadisələr gənclərdə yeni işgüzar və mənəvi-psixoloji keyfiyyətləri formalaşdıra bilir? Bunu öyrənmək üçün artıq aprobasiyadan keçmiş metodikaya müraciət etdik.

Bu metodika şəxsiyyətin kommunikativ və təşkilatçılıq meyllərini üzə çıxarılması üçün nəzərdə tutulmuşdur (insanlarla işgüzar və yoldaşlıq münasibətlərini dəqiq və tez qurmaq bacarığı, ünsiyyətin genişlənməsinə nail olmaq, qrup tədbirlərində iştirak etmək, insanlara təsir etmək bacarığı, təşəbbüs göstərməyə meyl və s.) [16, c.581-583].

Metodika 40 sualdan ibarətdir və müayinə olunan hər bir suala “hə” və ya “yox” cavabı verməlidir. Tapşırıq 10 – 15 dəqiqəyə yerinə yetirilməlidir. Bu zaman kommunikativ və təşkilatçılıq meyllərinin dərəcəsi ayrıca müəyyən olunur. Bu metodika üzrə məlumatların işlənilməsi üçün açar belədir:

Kommunikativ meyllər
( + ) Hə 1, 5, 9, 13, 17, 21, 25, 29, 33, 37
( - ) Yox 3, 7, 11, 15, 19, 23, 27, 31, 35, 39

Təşkilatçılıq meylləri
( + ) Hə 2, 6, 10, 14, 18, 22, 26, 30, 34, 38
( - ) Yox 4, 8, 12, 16, 20, 24, 28, 32, 36, 40

İndi cədvəllər əsasında həmin meyllərin əks qiymətlərini təhlil edək. Bizi maraqlandıran tərəf məhz əks cavablar olmuşdur ki, onların əsasında meylilik dərəcəsini aşkar edək. Cavabların həm də nisbi çəkisi, yəni faizləri də göstərilib.

Kommunikativ meyllərin müsbət qrupunda toplanan mənfi cavablar

**Cədvəl 1**

| | **Sual** | **Könüllü qızlar** | **Könüllü oğlanlar** | **Adi qızlar** | **Adi oğlanlar** |
|---|---|---|---|---|---|
| 1. | Sizdə insanları öyrənməyə və müxtəlif insanlarla tanışlıq münasibətləri qurmağa həvəs varmı? | - | - | - | 1/14 |
| 2. | Sizin daim ünsiyyətdə olduğunuz dostlarınız (rəfiqələriniz) çoxdurmu? | - | 1/9 | 1/16 | - |
| 3. | Sizdən yaşca çox böyük olan insanlarla asanlıqla ünsiyyət qura bilirsinizmi? | 4/29 | 1/9 | 1/16 | - |
| 4. | Sizə tanış olmayan insanlarla kontakta girmək və münasibət qurmaq asanmı başa gəlir? | 2/14 | 2/18 | 1/16 | 1/14 |
| 5. | Siz imkan olanda yeni insanlarla tanış olmağa və söhbət etməyə çalışırsınızmı? | 1/7 | - | 1/16 | 1/14 |
| 6. | Daima insanlar arasında olmaq sizə xoş gəlirmi? | - | 3/27 | - | 2/28 |
| 7. | Kollektiv oyunlarda iştirak etməyi sevirsinizmi? | 2/14 | 1/9 | 1/16 | - |
| 8. | Düşünürsünüzmü ki, sizə az tanış olan qrupu canlandırmaq sizin üçün çox çətinlik yaratmayacaq? | 4/29 | - | 4/67 | - |
| 9. | Sizə tanış olmayan kollektivə düşdükdə özünüzü sərbəst hiss edirsinizmi? | 2/14 | 3/27 | 2/33 | 2/28 |
| 10. | Doğrudurmu ki, sizin çoxlu dostlarınız var? | 3/21 | 3/27 | 1/16 | 3/43 |

Cədvəldən göründüyü kimi, könüllülər sırasında olan qızlarda və adi qızlarda 8 mövqe üzrə oxşarlıq var. Bununla belə könüllü qızlarda həmin mövqelərə aid göstəricilər ümumən əks tərəfdən

bir qədər aşağıdır. Könülü oğlanlarda dörd mövqe üzrə oxşar göstəricilər olsa da, ümumi göstərici adi oğlanlardan aşağıdır. Hər iki qrup qızlarda kommunikativlikdə yaşanan problemlər cəmiyyətdə onların statusu və milli mentallıq ilə əlaqəlidir.

Kommunikativ meyllərin mənfi qrupunda toplanan müsbət cavablar

**Cədvəl 2**

| | **Sual** | **Könüllü qızlar** | **Könüllü oğlanlar** | **Adi qızlar** | **Adi oğlanlar** |
|---|---|---|---|---|---|
| 1. | Sizin yoldaşlarınızın birinin səbəb olduğu inciklik hissiyyatı sizi çoxmu narahat edir? | 8/57 | 5/45 | 5/83 | 5/71 |
| 2. | Doğrudurmu ki, insanlarla vaxt keçirməkdənsə kitablarla və ya hər hansı başqa bir işlə vaxt keçirmək sizin üçün daha xoş və rahatdır? | 3/43 | 3/27 | 3/50 | 2/28 |
| 3. | Yeni kompaniyaya ( kollektivə) daxil olmaq sizə çətin gəlmir ki? | 2/14 | 3/27 | 1/16 | 2/28 |
| 4. | Yeni kollektivə siz çətin uyğunlaşırsınız? | 4/29 | 2/18 | 1/16 | 2/28 |
| 5. | Ətrafdakı insanlar sizi qıcıqlandırırmı və siz tək qalmaq istəyirsinizmi? | 3/21 | 6/55 | 2/33 | 3/43 |
| 6. | Yeni insanla tanış olmaq üçün təşəbbüs göstərmək lazım gəlirsə siz çətinlik çəkmirsiniz ki? | 1/7 | 1/9 | 2/33 | 2/28 |
| 7. | Doğrudurmu ki, sizə tanış olmayan insanlar arasında özünüzü arxayın hiss etmirsiniz? | 4/29 | 4/36 | 3/50 | 1/14 |
| 8. | Siz öz tanışlarınızdan ibarət çevrəni məhdudlaşdırmağa çalışırsınızmı? | - | 1/9 | - | 2/28 |
| 9. | Doğrudurmu ki, siz böyük bir insan qrupu qarşısında çıxış edən zaman özünüzü kifayət qədər arxayın və rahat hiss etmirsiniz? | 6/43 | 7/64 | 3/50 | 4/57 |
| 10. | Siz az tanış olan insanlarla ünsiyyət zamanı özünüzü çox vaxt narahat hiss edirsinizmi? | 6/43 | 6/55 | 3/50 | 1/14 |

Burada toplanan müsbət cavablar hər qrupda müəyyən problemlərin olmasını bildirir. Bunlar yenə də adi tələbələrdə üstünlük təşkil edir, lakin alınan nəticələrin bəzi cəhətlərə diqqət yetirməliyik. Qeyd etmək lazımdır ki, qızlar-könüllülərdə göstəricilər onların daha cəsarətli, ünsiyyətcildirlər, kommunikasiya yaratmaq istəyi və bacarığı daha qabarıq şəkildə özünü bildirir.

Təşkilatçılıq meyllərin müsbət qrupunda toplanan mənfi cavablar

**Cədvəl 3**

| | **Sual** | **Könüllü qızlar** | **Könüllü oğlanlar** | **Adi qızlar** | **Adi oğlanlar** |
|---|---|---|---|---|---|
| 1. | İctimai işlə məşğul olmaq sizin xoşunuza gəlirmi? | - | - | - | 1/14 |
| 2. | Tez-tezmi yoldaşlarınızın çoxunu sizin fikrinizi qəbul etməyə razı salmağı bacarırsınız? | 7/50 | 1/9 | 3/50 | 1/14 |
| 3. | Siz öz dostlarınızla birgə müxtəlif oyunlar və əyləncələr fikirləşməyi və təşkil etməyi sevirsinizmi? | - | 1/9 | 1/16 | - |
| 4. | Siz çalışırsınızmı ki, yoldaşlarınız sizin fikirlərinizə uyğun hərəkət etsinlər? | 5/36 | 4/36 | 1/16 | - |
| 5. | Vacib işlərin yerinə yetirilməsində siz tez-tezmi bu təşəbbüsü öz üzərinizə götürürsünüz? | 1/7 | - | 2/33 | 1/14 |
| 6. | Başladığınız işi sona çatdıra bilməyəndə əsəbiləşirsinizmi? | 1/7 | 3/27 | 2/33 | - |
| 7. | Sizin dostlarınızın maraqlarına toxunan məsələlərin həllində tez-tezmi təşəbbüs göstərirsiniz? | 3/21 | 1/9 | 2/33 | - |
| 8. | Məktəbdə (istehsalatda) ictimai işlə məşğul olursunuzmu? | 1/7 | = | 2/33 | 1/14 |
| 9. | Siz öz dostlarınız üçün müxtəlif tədbirlərin təşkil edilməsini həvəsləmi iştirak edirsiniz? | - | 2/18 | 2/33 | - |
| 10. | Siz öz dostlarınızın diqqət mərkəzində tez-tezmi olursunuz? | 2/14 | - | 3/50 | 1/14 |

Təşkilatçılıq meylləri ilə bağlı qeyd olunmalıdır ki, burada həm könüllü olan, həm də könüllü olmayan tələbə-qızlarda mentallıq, tərbiyə və sosial statusundan irəli gələn bir sıra xüsusiyyətlər var. Bununla belə istənilən halda könüllü-qızların daha yaxşı təşkilatçı olmaq şansı daha böyükdür. Adi oğlanların cavabları bəzi hallarda könüllü işləyənlərdən daha üstündür. Amma bütövlükdə könüllü olanların şansları burada daha üstündür.

Təşkilatçılıq meyllərin mənfi qrupunda toplanan müsbət cavablar

**Cədvəl 4**

| | Sual | Könüllü qızlar | Könüllü oğlanlar | Adi qızlar | Adi oğlanlar |
|---|---|---|---|---|---|
| 1. | Yaranmış kritik vəziyyətdən çıxış yolu tapmaq sizin üçün çətin gəlmir ki? | 2/14 | 2/18 | 4/67 | 1/14 |
| 2. | Sizin niyyətlərinizin həyata keçirilməsində bəzi maneələr baş verəndə siz öz niyyətlərinizdən asanlıqla imtina edirsizmi? | 2/14 | 3/27 | - | 1/14 |
| 3. | Bu gün görüləcək işlərinizi başqa günlərə tez-tezmi təxirə salırsınız? | - | 3/27 | 3/50 | 1/14 |
| 4. | Doğrudurmu ki, sizin dostlarınız öhdəliklərini, vəzifələrini, verdikləri sözləri yerinə yetirmədikləri zaman onlarla konfliktiniz olmur? | 3/21 | 5/45 | 1/16 | 2/28 |
| 5. | Doğrudurmu ki, sizə tanış olmayan şəraitdə pis orientasiya olunursunuz? | 1/7 | 2/18 | 3/50 | 1/14 |
| 6. | Bu doğrudurmu ki, yoldaşlarınızla daimi ünsiyyətdən yorulursunuz? | - | 1/9 | 2/33 | 2/28 |
| 7. | Doğrudurmu ki, siz haqlı olduğunuzu sübut etməyə çox nadir hallarda çalışırsınız? | - | 3/27 | 1/16 | 2/28 |
| 8. | Doğrudurmu ki, sizin rəyiniz və ya qərarınız yoldaşlarınız tərəfindən dərhal qəbul olunmayanda siz onlardan vaz keçirsiniz? | 4/29 | - | 1/16 | 1/28 |
| 9. | Siz işgüzar və başqa görüşlərə tez-tezmi gecikirsiniz? | 4/29 | - | 1/16 | 1/14 |
| 10. | Doğrudurmu ki, siz öz yoldaşlarınızdan ibarət böyük bir qrupun əhatəsində özünüzü o qədər də arxayın hiss etmirsiniz? | 3/21 | - | 2/33 | - |

Dördüncü cədvəlin göstəricilərindən belə bir qənaətə gəlmək olar ki, həm könüllü qızlar, həm də könüllü oğlanların göstəriciləri onlarda təşkilatçılıqla bağlı olan imkanlar daha geniş və rəngarəngdir. Dördüncü sualın cavabından görünür ki, onlar daha məsuliyyətli və prinsipial olublar, görülən işə cavabdeh olmağa hazırdırlar. Bəzi oxşarlıq və yaxud uyğunluq respondentlərin yaşı və yaxud fəaliyyət sahəsi, yəni tələbəlik ilə bağlıdır.

**Nəticədə** belə bir qənaətə gəlmək olar ki, həqiqətən insanı əhatə edən məkan, onun xüsusiyyətləri insanın şəxsiyyət keyfiyyətlərinə, peşə bacarıq və vərdişlərinə, sosial-psixoloji durumuna birbaşa təsir edir. Təhsil alanlar üçün bu daha önəmlidir. Ali məktəblərin böyük şəhərlərdə, qədim sivilizasiya ocaqlarında yerləşməsi insanların mədəni, mənəvi, sosial keyfiyyətlərinə təsir göztərir, yeni insani keyfiyyətləri formalaşdırır. Son zamanlar Azərbaycanda aparılan quruculuq, abadlaşdırma işləri insanları mənəvi cəhətdən ucaldır, onlarda dünyaya yeni münasibət formalaşdırır, şəxsiyyət və vətəndaşlıq keyfiyyətləri əmələ gətirir. Hesab edirik ki, irəli sürdüyümüz fərziyyə özünü doğrultdu.

Tədqiqatın daha geniş şəkildə, böyük seçmə əsasında aparılması məqsədə uyğundur.

**Problemin aktuallığı.** İnsan, onu əhatə edən ətraf aləm əsasən süni xarakter daşıdığına görə ona təsir edən bəzi amillər də şəhərlə, onun memarlıq xüsusiyyətləri ilə bağlıdır. Həm də məlumdur ki, insan davranışı müəyyən dərəcədə onun yaşadığı qrupun təsiri altında formalaşır.

**Problemin yeniliyi**. Sürətlə inkişaf edən şəhər aqlomerasiyası şəraitində xarici aləmin qiymətləndirilməsində baş verən dəyişikliklərin şəxsiyyət keyfiyyətlərinə təsirini öyrənmək aktual məsələlərdən biridir, bu da məqalənin elmi yeniliyini təşkil edir.

**Problemin praktik əhəmiyyəti.** Həqiqətən insanı əhatə edən məkan, onun xüsusiyyətləri insanın şəxsiyyət keyfiyyətlərinə, peşə bacarıq və vərdişlərinə, sosial-psixoloji durumuna birbaşa təsir edir. Təhsil alanlar üçün bu daha önəmlidir.

**Ədəbiyyat**:

1. Stokols D. An Overview of Theoretical Perspectives on Crounding. //Enironment and Behavior. 1976. March. P.51-86
2. Ralph B. Taylor. Perception of Density Individual Differences? // Johns Hopkins University, Center for Metropolitan Planning and Research, Department of Psychology // Environment and Behavior, 1981, volume 13, no. 3-21
3. Жилина Ю.Н. Влияние потребностей человека на организацию архитектурной среды. Автореф. дисс. на соиск. уч. степени канд. архитектуры. Екатеринбург, 2003.
4. Mark Roxburgh. Design and the aesthetics of research. University of Technology Sydney // http://vcj.sagepub.com/content/9/4/425.abstract
5. Арнхейм Р. Искусство и визуальное восприятие. М.: Прогресс, 1974.- 392 с.
6. Архитектура и психология: учебное пособие для вузов / Степанов А. В., Иванов Г. И., Нечаев Н. Н. М.: Стройиздат, 1993.
7. Архитектура и эмоциональный мир человека / Г. Б. Забелыпанский, Г. Б. Минервин, А. Г. Раппапорт, Г. Ю. Сомов. М.: Стройиздат, 1985.
8. Дэй К. Места, где обитает душа: Архитектура и среда как лечебное средство // Пер. с англ. В. Л. Глазычева. М.: Изд-во "Ладья", 2000
9. Иовлев В. И. Экопсихология для архитекторов: процесс и форма. -Екатеринбург: Архигектон, 1996.
10. Пилипенко В. Р. Психологические аспекты проектирования предметного мира // Вопросы психологии. 1988. № 1
11. Ткачиков И. Н. Архитектурная психология. Киев: Знание, 1980.
12. Черноушек М. Психология жизненной среды / Пер. с чеш. И. И. Попа. -М.: Мысль, 1989.
13. Архитектура и эмоциональный мир человека / Г. Б. Забельшанский, Г.Б. Минервин, А.Г. Раппапорт, Г.Ю. Сомов. М.: Стройиздат, 1985.
14. Березин М. П. Пространство – восприятие – поведение. // Строительство и архитектура Ленинграда. №7 за 1975 г. – Ленинград: Лениздат, 1975.
15. Штейнбах Е.Э. Проксемика и краудинг // http://www.elitarium.ru/
16. Практическая психодиагностика. Методика и тесты. Составитель Д.Я.Райгородский. Самара: Изд. Дом «БАХРАХ=М», 2002.
17. Психоэкология организации и жизненной среды (управленческая психология) // http://psychological.ru/

E-mail: akazimzade@yahoo.com

**Rəyçi:** *psixol.ü.fəls.dok., dos.* R.V. Cabbarov

**Redaksiyaya daxil olub: 11.05.2018**